

# Qarabağ döyüşləri taleyimdə böyük dönüş yaratdı

***Müsahibim 44 günlük Vətən müharibəsi dövründə şərəfli döyüş yolu keçmiş Ağalar Əliniyaz oğlu Əliyevdir.***

Ağalar Əliyev 1995-ci il dekabrın 3-də Abşeron rayonunun Ceyranbatan qəsəbəsində ziyalı ailəsində anadan olmuşdur. 2001-ci ildə Ceyranbatan qəsəbə orta məktəbinin I sinifinə, 2002-ci ildə isə Bakı şəhəri Nərimanov rayonundakı S.C. Pişəvəri adına humanitar fənnlər gimnaziyasında 2-ci sinifə getmişdir. 2012-ci ildə həmin gimnaziyanı bitirmiş, 2012–2016-cı illərdə Azərbaycan Dövlət İqtisad Universitetində beynəlxalq iqtisadi münasibətlər fakültəsinin dünya iqtisadiyyatı ixtisası üzrə təhsil almışdır. 2016 – 2017-ci illərdə hərbi xidmətdə olmuşdur. 2017-ci ildə hərbi xidmətini başa vurduqdan sonra müxtəlif biznes qurumlarında işləmişdir. 2020-ci ilin iyulunda baş verən məlum Tovuz hadisələri zamanı könüllü kimi hərbi səfərbərlikdə qeydiyyatdan keçib...

***– Şərəfli döyüş yolu keçmisiniz. Bu yol haradan başladı?***

– 27 sentyabr 2020-ci il səhər saatlarında Ermənistan Silahlı Qüvvələrinin genişmiqyaslı təxribat törədərək cəbhəboyu zonada yerləşən Azərbaycan ordusunun mövqelərini və yaşayış məntəqələrini iriçaplı silahlar, minaatanlar və müxtəlif çaplı artilleriya qurğularından intensiv atəşə tutmağa başlamışdı. Ermənistan ordusunun döyüş aktivliyinin qarşısını almaq, mülki əhalinin təhlükəsizliyini təmin etmək və işğal altındakı torpaqlarımızın azad edilməsi məqsədilə 2020-ci il sentyabrın 27-də Azərbaycan Respublikası Silahlı Qüvvələri Ali Baş Komandanın rəhbərliyi altında Vətən müharibəsinə başlandı.

Mən də Vətən uğrunda canından keçməyə hazır olan minlərlə oğullarımız kimi sentyabrın 29-da Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Binəqədi Rayon idarəsindən Vətən müharibəsinə yola düşdüm. Həmin gün hər kəsdə ruh yüksəkliyi gördüm. Bu nikbinlik mənə o qədər xoş hisslər yaşatdı ki, bunları sözlə ifadə etmək çətindir. Heç yadımdan çıxmaz. Hərbi hissəyə çatdıqdan sonra bizi qarşılayan zabit, gizir heyətinin səmimi davranışı bizi qarşıdakı döyüşlərə ruhlandırdı. Hamı bir-birinə "qardaş" deyə müraciət edirdi. Bilirdik ki, buraya yadelli düşmənləri doğma torpaqlarımızdan qovmağa və 30 illik torpaq həsrətinə son qoymağa gəlmişik.

***– Hansı cəbhələrdə oldunuz?***

– Mən atıcı idim. İlkin hücum əməliyyatlarına Füzuli rayonu istiqamətində başladıq. İnanın, həmin vaxtlar hər birimiz irəliyə can atırdıq. İlk döyüşümüzü çox gözəl xatırlayıram. Bölük komandiri bizi sıraya düzərək dedi: "Balalarım ölmək qadağan, öldürmək sərbəstdir. Haqqınızı halal edin".

Bu istiqamətdə düşməni qovaraq Cəbrayıl rayonu ərazisinə daxil olduq. Cəbrayıl rayonunun Soltanlı kəndini oktyabrın 19-u düşmən işğalından azad etdik. Soltanlı kəndində qarşı tərəf xeyli canlı qüvvə və texnika itkiləri verdi. Həmin kəndin ərazisində erməni zabitinin cəsədi üzərindən Azərbaycan dilinə tərcümə olunmuş Qurani-Kərim tapdım. Bu hadisə məni olduqca kövrəltdi. Həmin Qurani-Kərimi döyüş yoldaşım Xəyal Şahmuradova hədiyyə etdim və o da döyüşün sonuna qədər bu əmanəti ürəyinin üzərində gəzdirdi. Həmin günü cəbhə boyu irəli gedərək Zəngilan rayonu istiqamətində əks-hücum əməliyyatına başladıq. Zəngilan rayonunun Məmmədbəyli, Havalı, Həkəri kəndlərini düşmən işağılından azad etdik.

Oktyabrın 21-də Mincivan qəsəbəsini, oktyabrın 22-də isə Tiri və Vəliqulubəyli kəndlərindən erməni qoşunlarını çıxardıq. Heç unutmuram. Mincivan qəsəbəsi istiqamətində gecəyarısı kəşfiyyatçı qrupumuz tərəfindən 12 erməni aşkar edildi və yerindəcə 8-i məhv edildi, 4-ü əsir götürülərək təhvil verildi. Artıq düşmən qüvvələri ağır itki verərək çox sürətli şəkildə qaçırdı. Döyüş yoldaşlarımdan Məmməd Qurbanov, Xəyal Şahmuradov, Əli Nəzərli, Samir Əliyev, Nadir Rzazadə, Murad Əhmədov, Elnur Musayev və digər oğulların adlarını çəkə bilərəm. Düşmənin bir çox texnika və canlı qüvvəsinin məhv edilməsində birlikdə iştirak etmişik.

***– Deməli, Zəngilan və Qubadlının azad edilməsində sizin də xidmətləriniz olub.***

– Zəngilanda cox mürəkkəb döyüş əməliyyatları keçirdik. Rayonun mərkəzinə gəldikdən sonra biz orada Xüsusi Təyinatlı qüvvələrin və şəxsən general-mayor Mais Barxudarovun iştirakı ilə Qubadlı rayonunun işğaldan azad edilməsi uğrunda sərt döyüşlərə başladıq. Çox sürətlə irəliləyirdik, verilən döyüş tapşırıqları dəqiq yerinə yetirilirdi. Deməli olar ki, itkisiz davam edirdik. Bütün bu yolları piyada irəlləyirdik. İlk olaraq Qubadlı rayonunun Zilanlı, Mahrizli, Qaralar, Xanlıq, Hal, Dondarlı, Dəmirçilər kəndlərini düşməndən azad edə bildik. Bu döyüşlərdə general-mayor Mais Barxudarovla birlikdə vuruşurduq. Mən döyüş zamanı generalımızın necə əzimkar, qorxmaz, mərd hərbçi olduğunu gördüm. Hətta, yemək yeməyə belə vaxtı yox idi. Bu təklif bizi o qədər ruhlandırdı ki, orada qarşımıza çıxan, bizə pusqu quran düşmənin canlı qüvvələrini göz qırpımında məhv edirdik. Hətta, biz pusquda belə olarkən düşmən qorxu içərisində idi. Dəmirçilər kəndindən sonra bir qismimiz Qubadlı rayonunun Fərcan kəndini azad etmək üçün irəlilədik. Mən isə Qubadlı şəhərinin azad olunması üçün ayrılan digər qüvvələrin tərkibində hücuma qatıldım. Qubadlı şəhərini oktyabrın 25-də düşməndən azad etdik. Daha sonra isə hədəf Laçın və Şuşa idi. Ancaq mənə Şuşa uğrunda döyüşmək qismət olmadı. Buna baxmayaraq, Laçın rayonunun Güləbird kəndinin düşməndən azad edilməsində iştirak etdim. Daha sonra isə Qubadlı rayonunun Dondarlı kəndi ərazisində yerləşən Hərtiz dağında mövqelərimizi möhkəmləndirdik. Bu döyüşlərdə şəhidlərimiz, qazilərimiz oldu. Allahdan şəhidlərimizə rəhmət diləyir, qazilərimizə can sağlığı arzu edirəm. Elə həmin mövqelərdə ikən gecə yarısı düşmənin təslim sənədi imzalaması xəbərini aldıq.

Rayonlarımızın düşməndən təmizlənməsinə görə mən də cənab Prezidentimiz tərəfindən medallarla təltif olundum. Xoşbəxtəm ki, erməni vandalları tərəfindən tarix boyu Azərbaycan xalqına qarşı törədilən vəhşiliklərin qisasının alınmasında minlərlə qəhrəman oğullarımız kimi mən də iştirak etdim.

***Müsahibəni yazdı:***
***M.MÜKƏRRƏMOĞLU,***
***"Xalq qəzeti"***

Xalq qəzeti.- 2021.- 8 oktyabr.- S.10.